# ƏSRİN FACİƏSİ

**(esse)**

*...Dağlar kimi,*
*Dərdim var dağlar kimi.*
*Viran olub talannam*
*Saralmış bağlar kimi.*

Qışın oğlan çağı... Vahimə saçan, qərəmət püskürən sıradan bir bazar axşamı... Gecə yarıdan xeyli keçib. Düzdünyaya hakim kəsilən dondurucu şaxta ovxarlanmış qılınc kimi kəsir. Bütün günü yağan qar ara vermir, güclü külək insanın iliyinə, qanına işləyir. Hər tərəf qaranlığa qərq olub. Çoxmilyonlu sakinlərini isti ağuşuna alıb şad-şalayın, bəxtəvər-bəxtəvər uyumaqda olan qardaş Türkiyənin şəhərləri, vilayətləri, əyalətləri, yaşayış evləri öz dinc həyatını yaşayır. Həyətdə-bacada ac canavartək ulayan külək yorğunluğunu səngitməkdən ötrümü, ya nədənsə özünü müxtəlif biçimli uca binaların evlərin, bir-birinə söykənən tikililərin qapılarına, pəncərələrinə, eyvanlarına çırpır, içəri təpilməyə can atır. Ancaq cəhdinin boşa çıxması səbəbindən daha da azğınlaşır, qudurub-quduzlaşır. Bu nədir, Alahım, bəlkə o, müdhiş bir fəlakətin yaxınlaşması xəbərini şirin yuxuda olan insanlara çatdırmağa tələsir! Kim bilir? Nahaq deməyiblər ki, sən saydığını say, gör fələyin saydığı nədir...

Səhərə az qalmış, doğrudan da, başı bədbəxt hadisələrdən heç vaxt avazımayan Türkiyə dövlətinin qapısını ömründə görmədiyi, eşitmədiyi, yaşamadığı daha dəhşətli bir fəlakət döydü. Çox güclü, dağıdıcı zəlzələ baş verdi. Sanki dünya məhvərindən qopdu. Bir göz qırpımında böyük bir ərazi büsbütün viran qaldı, yerlə yeksan oldu. Həyatın əbədiyyət çırağı qaraldı, söndü. Ətraf qatı zülmətə döndü. Yaşayış binaları, sosial obyektlər, ticarət mərkəzləri... digər infrastrukturlar qulaqbatırıcı gurultu ilə uçub töküldü. İnsanlar uçqunlar, dağıntılar altında qaldı. Dağılmış binaların yerində daş, dəmir-beton qalaqları, qum, torpaq təpələri qaldı. Boz-bulanıq tüstü-duman qatı ərşə bülənd oldu. 7.6 və 7.7 ballıq zəlzələ on minlərlə insanın həyatına son qoydu, sağlamlığını əlindən aldı, əmlakının, varidatının itirilməsilə nəticələndi. Neçə-neçə ehtimallar, gümanlar, xəyallar, xatirələr, ümidlər, arzu-istəklər daşa toxundu, şüşətək çilik-çilik oldu. Başıbəlalı Türkiyə dövləti və hökuməti baş vermiş fəlakətdən yana özündə güc taparaq dərhal toparlana bildi. Xilasetmə əməliyyatına girişdi...

Qan qardaşlarımızın qismətinə yazılmış bu facia bütün türk dünyasını sarsıtdı. Azərbaycanda isə daha geniş əks-səda oyatdı. Uşaqdan böyüyəcən hamı dərin hüzn və sonsuz kədər içində göz yaşlarına boğuldu. Doğmalarımıza ilk kömək əlini uzadan, elliklə humanitar yardım göstərən də azərbaycanlılar oldu. Xilasedicilərimizin gərgin zəhməti, can yanğısı, milli duyğusuyla qardaşlarımızın dağıntılar altından çıxarılması əməliyyatında yaxından iştirak etməsi bir daha göstərdi ki, biz həmişə, hər yerdə Türkiyənin yanındayıq. Hadisədən xeyli vaxt keçməsinə baxmayaraq, "İki təndə bir can - Türkiyə-Azərbaycan", "Tək ürək..." çağırışı ilə köməyə gedən fədakar oğullarımız hələ də fəlakət zonasındadırlar. Humanitar yardım karvanlarımızın isə ardı-arası kəsilmir. Bu proses müdhiş zəlzələnin vurduğu ziyanların aradan qaldırılmasınadək davam edəcək.

Əminliklə deyə bilərik ki, aramsız çarpışmalarla dolu zəngin tarixi keçmişi, möhtəşəm dövlətçilik ənənələri olan böyük və güclü Türkiyə dövləti, yenilməz,mətin, qorxmaz türk milləti bu bərpa və quruculuq imtahanından da şərəflə çıxacaqdır. Büsbütün viran olmuş, dağılmış Kaharamanmaraşda, Hatayda, Malatyada və digər şəhər və vilayətlərdə qısa müddət ərzində daha möhkəm, güclü zəlzələyə davamlı, yaraşıqlı yaşayış binaları, müxtəlif biçimli tikililər ucaldılacaq. Doğma bacı-qardaşlarımızın bəxtinə yenidən Günəş doğacaq, Ay şahidlik edəcək.

Günü bu gün də dünyanı heyrətə salan inanılmaz bir olayı sonsuz qürur və fərəh hissilə xatırlamaqdayıq. Osmanlı imperiyası dağıdılandan sonra (1922) Avropa dövlətləri, demək olar ki, bütün Türkiyəni tutmuşdu. Rusiya Qarsda lövbər salmışdı. İngilislərin və rusların quduz it kimi türklərin üstünə qısqırtdıqları haylar (ermənilər) fürsətdən yararlanaraq soyqırımına başlamışdılar. Türkiyənin taleyi tükdən asılı idi. Mövcud imkanların və canlı qüvvənin tükəndiyi bir vaxtda Mustafa Kamal Atatürk liderliyi ələ alıb bütün xalqını işğalçılara qarşı ölüm-dirim savaşına qaldırdı. Milyonların canı, qanı bahasına Türkiyə Cümhuriyyətini xilas etməyi bacardı. Təkcə Çanaqqalada üç gün ərzində 260 minə qədər türk şəhid oldu. Onların sırasında Azərbaycan türkləri də vardı. Həmin dövrdə Türkiyə əhalisi, demək olar ki, bütün dünya ilə vuruşurdu. Sözügedən qanlı savaş Türkiyə dövlət baytağının İstanbul şəhərinə sancılması ilə nəticələndi.

Hal-hazırda möhtəşəm Türkiyənin R.T.Ərdoğan kimi təcrübəli, nüfuzlu, intellektual səviyyəli, hər cür çətinlikləri qətiyyətlə dəf edən, dövlətini, ölkəsini, xalqını, millətini hədsiz dərəcədə sevən, onları arxasınca aparmağı, inandırmağı bacaran cümhur başqanı var.

Obrazlı desək: Oddan betər oddu, alovdan betər alovdu, seldən ötə seldi, yeldən ötə yeldi. Gücdən güclüdü, qüvvətdi, cəsarətdi, heyrətdi, qeyrətdi. Ər oğlu ərdi, nərdi Ərdoğan!

Qardaş ölkənin iqtisadi, ticari, elmi, mədəni, texnoloji imkanları çox geniş və tükənməzdir. O, ən çətin, çıxılmaz, ekstremal şəraitdə belə, birləşməyi, toparlanmağı bacarıb. Şübhə yoxdur ki, bu dəfə də o, qoca tarixin sınağından uğurla çıxacaq. Türkiyə iqtisadiyyatının yenidən dirçəlişi bütün türk dövlətlərinin sürətli inkişafına da öz müsbət təsirini göstərəcək.

***18.02.2023.***



***Qorxmaz ABDULLA,***
***AYB-nin üzvü,***
***Birinci Qarabağ müharibəsi veteranı.***

Kredo .- 2023.- 30 mart.- S.15.